

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 39 (21.700)

24 fevral 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Fevralın 23-də Bakıda, Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin üçüncü toplantısı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda iştirak edib.

* * *

Fevralın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Berat Albayrak ilə görüşüb.

Söhbət zamanı dünyada və Avropada baş verən siyasi, iqtisadi böhran fonunda Azərbaycan ilə Türkiyə arasındakı dostluq və qardaşlıq əlaqələrinin yüksək səviyyədə olması məmnunluqla qeyd edilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Türkiyə Respublikasının qida, kənd təsərrüfatı və heyvandarlıq naziri Faruk Çelikin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə ölkələrimizin kənd təsərrüfatı nazirlikləri arasında əlaqələrin yaxşı potensiala malik olduğu bildirilib, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.




## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyası keçirilmişdir





Fevralın 23-də beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyası keçirilmişdir.

Sessiyanın gündəliyinə aşağıdakı məsələlər verilmişdir.

1. 2017-ci ildə sosial-iqtisadi inkişaf sahəsində qarşıda duran vəzifələr

2. Naxçıvan Muxtar Respublikasının 2016-cı il dövlət büdcəsinin icrasının təsdiq edilməsi

3. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi

Gündəlikdə duran birinci məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Asəf Məmmədov çıxış edərək demişdir ki, bu gün muxtar respublika sosial-iqtisadi inkişafının yeni dövrünü yaşayır. İqtisadiyyatın bütün sahələri kimi tikinti sektoru da sürətlə inkişaf etməkdədir. 2016-cı il ərzində 14 təhsil müəssisəsi, 4 həkim ambulatoriyası, 9 feldşer-mama məntəqəsi, 29 mədəniyyət obyekti, 13 kənd mərkəzi, 14 xidmət mərkəzi tikilərək və ya yenidən qurularaq istifadəyə verilmiş, 17 inzibati bina inşa olunmuş, 61,5 kilometrdən artıq yeni avtomobil yolları salınmış, 3 körpü tikilmiş, 2 körpü isə yenidən qurulmuşdur.

Qeyd olunmuşdur ki, 2017-ci ildə Naxçıvan şəhərinin Həsən Əliyev küçəsindəki 2 nömrəli, İstiqlal küçəsindəki 79 nömrəli yaşayış binalarının, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublika Mərkəzi Uşaq Xəstəxanası binasının fasadının üzlənməsi, Qaraxanbəyli kəndində 414 şagird yerlik tam orta məktəb binasının, kənd və xidmət mərkəzi binalarının tikintisi, Şərur rayonunun Ələkli kəndində 216 şagird yerlik tam orta məktəb binasının, kənd musiqi məktəbi və kənd mərkəzi binalarının yenidən qurulması, xidmət mərkəzi binasının tikintisi, Ərəbyengicə kəndində 192 şagird yerlik tam orta məktəbin, kənd və xidmət mərkəzi binalarının, Qarahəsənli kəndində kənd və xidmət mərkəzi binalarının tikintisi və 216 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması, Babək rayonunun Payız kəndində 252 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması, kənd və xidmət mərkəzi binalarının tikintisi, Culfa rayonunun Dizə kəndində 216 şagird yerlik tam orta məktəbin, kənd və xidmət mərkəzi binalarının tikintisi, Ordubad rayonunun Üstüpü kəndində 252 şagird yerlik tam orta məktəbin, kənd mərkəzi, xidmət mərkəzi və həkim ambulatoriyası binalarının tikintisi, Kəngərli rayonunda 48 mənzilli yaşayış binasının tikintisi və muxtar respublika üzrə 80,2 kilometrlik avtomobil yolunun yenidən qurulması nəzərdə tutulmuşdur.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Elşad Əliyev demişdir ki, qəbul olunmuş dövlət proqramları və həyata keçirilən sosial-iqtisadi islahatlar muxtar respublikada aqrar bölmənin inkişafında mühüm rol oynamışdır. Əhalini ilboyu kənd təsərrüfatı məhsulları ilə təmin etmək muxtar respublikada aqrar sahədə qarşıda duran əsas vəzifələrdəndir. Hazırda muxtar respublikada ümumi tutumu 14 min 30 ton olan 31 soyuducu anbar və sahəsi 127 min 162 kvadratmetr olan 21 istixana kompleksi, tutumu 27 min ton olan uzunmüddətli taxıl ehtiyatı anbarları, 17 taxıl emalı müəssisəsi, 235 heyvandarlıq, 64 quşçuluq, 102 arıçılıq, 15 balıqçılıq, 72 bağçılıq və üzümçülük təsərrüfatı fəaliyyət göstərir. Ötən dövr ərzində "Naxçıvan Aqrolizinq" ASC-nin xətti ilə 1835 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası gətirilmiş, onlardan 1506-sı lizinq yolu ilə sahibkarlara verilmişdir. Əkinçilikdə, xüsusilə dənli bitkilərin məhsuldarlığının yüksəldilməsində ən əsas amillərdən biri keyfiyyətli toxum materialı ilə əkin aparılmasıdır. Aqrar sahəyə göstərilən diqqət və qayğının nəticəsidir ki, 2016-cı ildə muxtar respublikada 100 min 768 ton dənli və dənli-paxlalı, 10 min 500 ton dən üçün qarğıdalı, 725 ton dən üçün günəbaxan, 83 min ton tərəvəz, 46 min ton kartof, 38 min ton bostan məhsulları, 52 min ton meyvə, 15 min 600 ton üzüm, 25766 ton ət, 81372 ton süd, 80,5 milyon ədəd yumurta, 1022 ton yun və 1403 ton bal istehsal olunmuşdur. Kənd təsərrüfatı sahəsinin dinamik inkişafı ixracın həcminə də müsbət təsir göstərmiş, nəticədə ötən il muxtar respublika üzrə 99 milyon Amerika Birləşmiş Ştatları dollarından artıq həcmdə kənd təsərrüfatı məhsulları ixrac olunmuşdur. Görülmüş işlərin nəticəsidir ki, 2016-cı ildə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 429 milyon 448 min manat olmuşdur ki, bu da 2015-ci illə müqayisədə 6,1 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2017-ci ildə sosial-iqtisadi inkişaf sahəsində qarşıda duran vəzifələr barədə məruzə etmişdir. ***(Ali Məclis Sədrinin məruzəsi qəzetin bugünkü nömrəsində dərc olunur)***

Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Səbuhi Məmmədov Naxçıvan Muxtar Respublikasının 2016-cı il dövlət büdcəsinin icrasının təsdiq edilməsi haqqında çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsinə 2016-cı ildə bütün mənbələr hesabına 69 milyon manat proqnoza qarşı 73 milyon 605 min 636 manat vəsait daxil olmuş, tapşırıq 106,7 faiz icra olunmuşdur. 2016-cı ildə büdcə daxilolmalarının 86,5 faizi vergi orqanları, 9,6 faizi gömrük orqanları tərəfindən, 3,2 faizi büdcə təşkilatlarının ödənişli xidmətlərindən, 0,7 faizi isə digər daxilolmalar vasitəsilə təmin edilmişdir. Büdcə gəlirlərinin icrası mərkəzləşdirilmiş büdcə üzrə 105,1 faiz, Naxçıvan şəhəri üzrə 110,4 faiz, Şərur rayonu üzrə 110 faiz, Babək rayonu üzrə 109,7 faiz, Ordubad rayonu üzrə 110 faiz, Culfa rayonu üzrə 109,4 faiz, Şahbuz rayonu üzrə 108,6 faiz, Kəngərli rayonu üzrə 109,4 faiz, Sədərək rayonu üzrə 110,5 faiz olmuşdur. Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin xərcləri 2016-cı ildə 351 milyon 350 min manat dürüst təyinata qarşı 350 milyon 703 min 498 manat və ya 99,8 faiz icra olunmuşdur. Maliyyə orqanları 2017-ci ilin dövlət büdcəsinin icrası istiqamətində də bütün tədbirləri vaxtında həyata keçirəcəkdir.

Sonra sessiyada "Naxçıvan Muxtar Respublikasının 2016-cı il dövlət büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikası Qanunu qəbul edilmişdir.

Ali Məclisin Sədri gündəlikdə duran üçüncü məsələ ilə bağlı qeyd etmişdir ki, 2016-cı il sentyabrın 26-da keçirilən referendumla Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilmişdir. Həmin dəyişikliklərə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında da dəyişikliklər edilməsi üçün qanun layihəsi hazırlanmışdır. Konstitusiyanın Naxçıvan Muxtar Respublikasında vətəndaşların seçki hüququnu tənzimləyən 8-ci maddəsi yeni redaksiyada verilərək adından və mətnindən məhdudlaşdırıcı ifadələr çıxarılmış, maddənin strukturu Konstitusiya normalarına uyğunlaşdırılmışdır. Konstitusiyaya təklif olunan dəyişikliklərdən biri də gənclərin dövlət quruculuğunun bütün təbəqələrində iştirakına şəraitin yaradılması ilə bağlıdır. Belə ki, Konstitusiyanın 15-ci, 29-cu və 41-ci maddələrinə edilən dəyişikliklərə əsasən 18 yaşı tamam olmuş, seçkilərdə iştirak hüququ olan hər bir şəxs dövlət orqanlarında təmsil oluna biləcəkdir. Təklif olunan dəyişikliklərdə deputatların məsuliyyətinin artırılması məsələsi də öz əksini tapmışdır. Konstitusiyanın 43-cü maddəsinin III hissəsinə təklif edilən dəyişiklik isə texniki xarakter daşıyır.

"Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanunu oxunmuş və səsə qoyularaq qəbul edilmişdir.

Bununla da beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyası öz işini başa çatdırmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun

# M Ə R U Z Ə S İ



Hörmətli deputatlar və sessiya iştirakçıları!

Ümummilli lider Heydər Əliyevin quruculuq strategiyasına dönmədən əməl olunması nəticəsində ölkə, eləcə də muxtar respublika iqtisadiyyatında dinamik inkişaf meyilləri qorunub saxlanmışdır. Yerli xammal və ehtiyatlardan səmərəli istifadə etməklə istehsal müəssisələrinin yaradılması yeni iş yerlərinin açılmasına, məşğulluq səviyyəsinin yüksəlməsinə, əhali gəlirlərinin artmasına səbəb olmuşdur. Blokada şəraitinin çətinliklərinə baxmayaraq Naxçıvan Muxtar Respublikasının ərazi, ərzaq və enerji təhlükəsizliyi təmin edilmiş, nəqliyyat-kommunikasiya sahəsi müasirləşdirilmiş, ekoloji vəziyyət sağlamlaşdırılmış, sosial infrastruktur layihələri həyata keçirilmişdir.

Aparılmış təhlillərdən aydın olur ki, sosial-iqtisadi sahədə muxtar respublikanın inkişafını daha da sürətləndirmək üçün imkanlar çoxdur. Lakin ötən dövrdə bəzi mərkəzi və yerli icra hakimiyyəti orqanlarının fəaliyyətində aşkar olunmuş çatışmazlıqlar göstərir ki, 2017-ci ildə nəzarət və tələbkarlıq daha da artırılmalıdır.

Cari ildə **Maliyyə Nazirliyi** büdcə vəsaitindən qənaətlə, səmərəli və məqsədyönlü şəkildə istifadə olunmasına nəzarəti artırmalı, mal-material alınarkən izafi xərclərə yol verilməməli, əsasən yerli məhsullardan istifadə olunmalıdır.

**Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi** büdcə daxilolmaları üzrə qanunvericilikdə nəzərdə tutulmuş qaydaların icrasını təmin etməlidirlər.

Bu gün dünyada gedən böhrandan qorunmağın ən yaxşı yolu yerli istehsalın inkişaf etdirilməsidir. Bu, bir tərəfdən idxaldan asılılığı aradan qaldırırsa, digər tərəfdən əhali məşğulluğuna əhəmiyyətli təsir göstərir. Daxili bazarın qorunmasına, ərzaq məhsullarına olan tələbatın əsasən yerli istehsal hesabına ödənilməsi məqsədilə **İqtisadiyyat Nazirliyi** tərəfindən yerli xammala əsaslanan yeni istehsal müəssisələrinin yaradılması bundan sonra da davam etdirilməlidir. Layihələr seçilərkən keyfiyyət amili diqqətdə saxlanılmalı, qabaqcıl texnologiya ilə işləyən müəssisələrə üstünlük verilməlidir. Nazirlik çalışıb ona nail olmalıdır ki, sahibkarlıq subyektlərinə verilmiş kreditlər təyinatı üzrə istifadə edilsin, istehsal müəssisələrində məhsulun keyfiyyətinə xələl gətirmədən onun maya dəyərinin aşağı salınması üçün mütərəqqi üsulların tətbiqinə diqqət artırılsın.

Yeni müəssisələr yaradılarkən muxtar respublikanın bütün rayonları üzrə əmək və xammal ehtiyatları, təsərrüfatçılıq ənənələri nəzərə alınmalıdır. Ailə təsərrüfatlarının yaradılması və inkişafı yeni istehsal müəssisəsi yaratmadan məşğulluq problemini həll edir, əhali gəlirlərinin həcminin artmasına müsbət təsir göstərir. Ona görə də ailə təsərrüfatlarının yaradılmasına üstünlük verilməlidir.

**İqtisadiyyat Nazirliyi** muxtar respublikada istehsal olunan məhsulların xarici bazarlara çıxarılması və tanıdılması məqsədilə tədbirləri davam etdirməlidir.

**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi** öz səlahiyyətləri daxilində istehsal müəssisələrində və bazarlarda keyfiyyət amilini qorumalıdır. Uşaq bağçaları, məktəblər, xəstəxanalar və digər qapalı müəssisələr keyfiyyətli yerli məhsullarla təmin edilməlidir.

Daxili bazarın kənar təsirlərdən qorunması və tənzimlənməsi də vacib məsələlərdəndir. Daxili işlər və gömrük orqanları muxtar respublikaya işlənmiş avadanlıq və yararsız malların gətirilməsinin qarşısını almalıdırlar. Nəzərə alınmalıdır ki, bunlar iqtisadi inkişafa zərər vurmaqla bərabər, insanların həyatı və sağlamlığı üçün də ciddi təhlükə yaradır.

Kənd təsərrüfatı muxtar respublika iqtisadiyyatının əsas sahəsi kimi hər zaman diqqət mərkəzindədir. Tapşırıq verilmişdir ki, məhsuldarlığın artırılmasında rayonlaşmanın çox böyük əhəmiyyəti nəzərə alınaraq əkin atlasları tərtib olunsun və aidiyyəti üzrə yerlərə göndərilsin. Lakin araşdırmalar göstərir ki, yerlərdə məhsul istehsalçıları ilə maarifləndirmə tədbirlərinin zəif təşkili nəticəsində atlaslardan lazımi səviyyədə istifadə edilmir. Müasir əkin və suvarma metodlarının təbliği, aqrotexniki qaydalara əməl olunması, torpaqlardan təyinatı üzrə istifadəyə nəzarət sahəsində də çatışmazlıqlar mövcuddur. **Kənd Təsərrüfatı Nazirliyi, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi və yerli icra hakimiyyəti orqanları** əkilməyən boş torpaq sahələrinin əkin dövriyyəsinə cəlb olunmasını təmin etməli, əkinçilikdə müasir aqrotexniki qaydaların tətbiqi, bitkiçilik məhsullarının yerli şəraitə uyğun əkilməsi, torpaqların münbitliyinin artırılması ilə bağlı maarifləndirmə tədbirlərini mövcud nümunələr əsasında təşkil etməlidirlər. Meyvəçilik, arıçılıq kimi tarixi ənənələrə malik sahələrdə istehsal həcminin artırılması üçün tətbiq olunmuş və özünü doğrultmuş mütərəqqi üsullardan istifadəyə də nail olunmalıdır.

Əkin sahələrində suvarmaya nəzarət gücləndirilməlidir. Müasir suvarma metodlarına üstünlük verilməməsinin nəticəsidir ki, Şərur rayonu üzrə 330, Babək rayonu üzrə 93, Culfa rayonu üzrə 66, Kəngərli rayonu üzrə 124, Sədərək rayonu üzrə 3 min 229, Naxçıvan şəhəri üzrə 280 hektar, ümumilikdə, 4 min 122 hektar torpaq sahəsi şoranlaşmış, Şərur rayonu üzrə 3 min 198, Babək rayonu üzrə 714, Ordubad rayonu üzrə 36, Culfa rayonu üzrə 584, Kəngərli rayonu üzrə 1118, Sədərək rayonu üzrə 112, Naxçıvan şəhəri üzrə 420 hektar olmaqla, cəmi 6 min 182 hektar torpaq sahəsi isə çəmənləşməyə məruz qalmışdır. 2017-ci ildə şoranlaşmış və ya çəmənliyə çevrilmiş torpaq sahələrinin yenidən əkin dövriyyəsinə qatılması üçün aid təşkilatlar tədbirlər planı hazırlamalı və həyata keçirilməsinə başlamalıdırlar.

**Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi** də su itkisinə yol verilməməsi üçün müasir suvarma şəbəkələrinin qurulması və yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması istiqamətində tədbirləri davam etdirməlidir. Həmçinin komitə tərəfindən şəhər, rayon mərkəzləri və ətraf kəndlərdə içməli su və kanalizasiya xətlərinin çəkilişinin icrası zamanı keyfiyyət amilinə xüsusi diqqət yetirilməlidir.

Bu gün inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı sahəsində yeni innovasiyaların tətbiqinə və müasir texnikalardan istifadəyə geniş yer verilir. Muxtar respublikada da əl əməyini yüngülləşdirmək və məhsuldarlığı artırmaq məqsədilə **"Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti** tərəfindən müasir kənd təsərrüfatı texnikalarının alınaraq gətirilməsi davam etdirilməlidir.

Heyvandarlığın inkişafına da diqqət artırılmalıdır. **Dövlət Baytarlıq Xidməti** xəstəliklərə qarşı peyvəndləmənin vaxtında aparılmasını təmin etməli, heyvanlara qulluq və saxlanılma şəraiti ilə bağlı əhali arasında maarifləndirmə işini gücləndirməlidir. Məhsuldarlığı artırmaq üçün mal-qaranın cins tərkibinin yaxşılaşdırılması və süni mayalanma tədbirləri davam etdirilməlidir.

Torpaqlardan düzgün və təyinatı üzrə istifadəyə də diqqət artırılmalı, **Daxili İşlər Nazirliyi, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi və yerli icra hakimiyyəti orqanları** torpaqların zəbt olunması hallarına qarşı tədbirləri gücləndirməlidirlər.

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi** kənd təsərrüfatı üçün yararlı olmayan ərazilərdə yaşıllıq zolaqlarının, eləcə də meyvə bağlarının salınmasını təşkil etməli, təbii ehtiyatlardan səmərəli istifadəyə nəzarəti artırmalıdır.

Verilən kreditlərin daha çox real sektora yönəldilməsi ilə bağlı **İqtisadiyyat Nazirliyi və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi** konkret tədbirləri özündə əks etdirən təkliflər hazırlamalıdırlar. Kreditlərə olan tələbat və kreditin qaytarılma imkanları düzgün qiymətləndirilməli, həmin vəsaitdən təyinatı üzrə və səmərəli istifadəyə nəzarət olunmalıdır.

**Dövlət Şəhərsalma və Arxitektura Komitəsi** tikintidə keyfiyyət amilinə xüsusi diqqət yetirməli, layihələr təhlil edilməli, izafi xərclərin qarşısı alınmalıdır.

Son illər muxtar respublikada tikinti materiallarının istehsalı ilə məşğul olan bir sıra müəssisələr fəaliyyətə başlamışdır. Ona görə də tikinti təşkilatları inşaat materialları alarkən birinci növbədə yerli məhsullardan istifadəyə üstünlük verməlidirlər.

İstifadəçiləri fasiləsiz elektrik enerjisi və təbii qazla təchiz etmək, mövcud infrastrukturun dayanıqlığını təmin etmək məqsədilə **Dövlət Energetika Agentliyi və "Naxçıvanqaz" İstehsalat Birliyi** müvafiq tədbirlər görməlidir.

**Rabitə və Yeni Texnologiyalar Agentliyi** yerli mütəxəssislərin hazırlanması tədbirlərini bundan sonra da diqqət mərkəzində saxlamalı, göstərilən xidmətlərin keyfiyyəti artırılmalıdır.

**Təhsil Nazirliyi** təhsil müəssisələrində tədrisin keyfiyyətinə nəzarəti gücləndirməli, informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadəni və dərslərin fənn kabinələrində keçirilməsini təmin etməlidir.

**Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi** aparılan elmi tədqiqatların səmərəliliyinə və istehsalatda tətbiqinə çalışmalı, gənc elmi kadrların hazırlanması işinə diqqəti artırmalıdır.

**Ali təhsil müəssisələri** də gənclərin elmi-tədqiqat işlərinə cəlb edilməsi səviyyəsini yüksəltməlidirlər. Müvafiq ixtisaslar üzrə hazırlanan tədris və elmi-metodik vəsaitlərin səviyyəsi artırılmalı, ixtisaslar üzrə təcrübi dərslərin hami təşkilatlarda keçirilməsinə üstünlük verilməlidir.

Muxtar respublikanın bütün tibb müəssisələrində zəruri maddi-texniki baza yaradıldığı üçün **Səhiyyə Nazirliyi** tibbi heyətin ixtisasının artırılmasını davam etdirməli, səhiyyə xidmətinin səviyyəsini yüksəltməlidir.

**Mədəniyyət və Turizm Nazirliyi** tabeliyində olan müəssisə və təşkilatlarda kadrların düzgün yerləşdirilməsini və mədəni xidmətin səviyyəsinin yaxşılaşdırılmasını təmin etməlidir.

**Gənclər və İdman Nazirliyi** muxtar respublikada olan idman qurğu və obyektlərindən, eyni zamanda olimpiya-idman komplekslərindən istifadəyə və onların qorunub saxlanılmasına diqqəti artırmalıdır.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** qayğıya ehtiyacı olanların səmərəli məşğulluğu ilə bağlı tədbirləri davam etdirməli, peşə hazırlığını əmək bazarına uyğunlaşdırmalıdır.

Muxtar respublikada ətraf mühitin qorunması sahəsində tədbirlər davamlı xarakter almışdır. Lakin təəssüf ki, hələ də müxtəlif növ tullantıların ərazilərə atılması hallarına rast gəlinir. **Yerli icra hakimiyyətləri** abadlıq-təmizlik işlərinə diqqəti artırmalı, əkinəyararlı boş torpaq sahələrindən istifadə ilə bağlı tədbirlər görməlidirlər. Bundan başqa, vətəndaşların müraciətlərinin həlli, tikilənlərin qorunması, nizam-intizam diqqət mərkəzində olmalıdır.

**Dövlət Statistika Komitəsi** sosial-iqtisadi inkişafla bağlı görülmüş işlər və nəticələr haqqında tematik təhlili materiallar hazırlayaraq kütləvi informasiya vasitələrində dərc etdirməlidir.

**Hüquq mühafizə orqanları** maarifləndirmə və profilaktika tədbirlərinə geniş yer verməli, ictimai asayişin və dövlət əmlakının qorunması üçün səylərini artırmalıdır.

Ordu, birləşmə və hərbi hissə komandirləri döyüş hazırlığını daim artırmalı, ehtiyatlardan və resurslardan səmərəli istifadə olunmalıdır.

Muxtar respublikanın **teleradio və qəzetlərində** tarixi-mədəni irsimiz və milli dəyərlərimizlə bağlı maarifçilik işi gücləndirilməlidir.

Hörmətli sessiya iştirakçıları!

2017-ci ildə də qarşıdakı mühüm vəzifələrin icrasında sizə uğurlar arzulayır, çıxışımı ölkə rəhbəri cənab İlham Əliyevin fikirləri ilə tamamlayıram: ***"Bizim siyasətimizin məqsədi ölkəmizi gücləndirməkdir, müstəqilliyimizi möhkəmləndirməkdir və dayanıqlı inkişafa nail olmaqdır".***

Sağ olun.

## Naxçıvan Muxtar Respublikasının 2016-cı il dövlət büdcəsinin icrası haqqında Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Naxçıvan Muxtar Respublikasının 2016-cı il dövlət büdcəsinin icrası gəlirlər üzrə 73 605 636 manat, xərclər üzrə 350 703 498 manat məbləğində olmaqla təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 23 fevral 2017-ci il*

# Muxtar respublikada gömrük xidməti müasir tələblər səviyyəsində qurulub

*24 fevral Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yarandığı gündür*

***Ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən, 1992-ci il fevralın 24-də qəbul etdiyi qərarla Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi yaranmışdır. Bu dövrdə ulu öndərimizin şəxsi nüfuzu sayəsində İran ərazisindən keçməklə Azərbaycanın digər bölgələri ilə nəqliyyat əlaqəsinin qurulması, Sədərək-Dilucu və Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqələrinin yaradılması blokadada olan Naxçıvanın böhranlı vəziyyətdən çıxarılmasında, gömrük və ticarət əlaqələrinin inkişafında mühüm rol oynamışdır.***



Ötən 25 ildə böyük inkişaf yolu keçən muxtar respublika gömrük sistemi müasir infrastrukturu və möhkəm maddi-texniki bazası ilə seçilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin gömrük xidmətinin müasir tələblər səviyyəsində qurulması istiqamətində həyata keçirdiyi ardıcıl tədbirlər bu baxımdan mühüm əhəmiyyətə malikdir. Son illər qonşu Türkiyə Respublikası və İran İslam Respublikası ilə imzalanmış sazişlər, həyata keçirilən rəsmi səfərlər sayəsində xarici əlaqələrin əhatə dairəsi xeyli genişlənmişdir. Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsinə beynəlxalq statusun verilməsi, Sədərək və Culfa gömrük sərhəd-buraxılış məntəqələrində 24 saatlıq, Şahtaxtı gömrük sərhəd-buraxılış məntəqəsində 12 saatlıq iş rejiminin tətbiq edilməsi gömrük işi sahəsindəki hərtərəfli inkişafın əyani göstəricisidir.

2007-ci ildə Culfa, 2009-cu ildə Şahtaxtı, 2012-ci ildə isə Naxçıvan Şəhər Gömrük idarələri üçün müasir gömrük kompleksləri, 2014-cü ildə Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi üçün inzibati bina, 2015-ci ildə "Naxçıvanterminalkompleks" Birliyi üçün yeni inzibati bina və anbar kompleksinin istifadəyə verilməsi, eləcə də gömrük laboratoriyasının yaradılması xidmətin müasir tələblər səviyyəsində qurulmasına səbəb olmuşdur. Artıq muxtar respublika gömrük sistemində ən müasir standartlar tətbiq olunur. Culfa, Şahtaxtı və Sədərək sərhəd-keçid məntəqələrində quraşdırılan X-Ray rentgen-nəzarət qurğuları muxtar respublikaya bütün istiqamətlərdən gələn yüklərə və yük nəqliyyat vasitələrinə gömrük nəzarətini daha dolğun və sürətli şəkildə həyata keçirməyə imkan verir. Ötən ildən gömrük sərhəd-buraxılış məntəqələrində tətbiq olunan "Sərhədkeçmə vaxtının ölçülməsi" sistemi isə mal və nəqliyyat vasitələrinin sərhəddən keçmə və buraxılış vaxtlarının qeydiyyatının avtomatik qaydada aparılmasına və sərhədkeçmədən buraxılışa qədər olan müddəti müəyyən etməyə imkan verir.

Komitənin "Hədəf mərkəzi"ndə muxtar respublika ərazisində malların və nəqliyyat vasitələrinin hərəkətinin izlənilməsi, gömrük əməliyyatlarının monitorinqinin aparılması və riskin idarəolunması sistemi əsasında effektiv gömrük nəzarəti həyata keçirilir. Eyni zamanda gömrük orqanlarında quraşdırılmış müasir tipli müşahidə kameralarının imkanlarından istifadə olunmaqla iş prosesinə 24 saat nəzarət edilir. Sərhəd-buraxılış məntəqələrində quraşdırılmış "Gömrük" köşkləri üç dildə – Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərir. Bu məlumat köşkləri vasitəsilə vətəndaşlar sadələşdirilmiş elektron bəyannaməni doldurur, həmçinin gömrük qanunvericilik bazası və səyahətçilər üçün gömrük nəzarəti ilə bağlı qaydalarla tanış olurlar.

Gömrük rəsmiləşdirilməsinin asanlaşdırılması, şəffaflığın təmin edilməsi, gömrük-biznes əməkdaşlığının artırılması məqsədilə informasiya texnologiyalarının tətbiqi və elektron xidmətlərin arealı ilbəil genişləndirilir. Hal-hazırda məlumat mübadiləsi, texnoloji proseslər və ödənişlər elektron formada aparılır. Ötən ildən isə gömrük orqanlarında bəyannamələrin qəbulu da elektron formada həyata keçirilir.

İdxal olunan malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsilə bağlı daha bir yenilik isə ilkin bəyanetmə elektron xidmətidir. Belə ki, idxal-ixrac əməliyyatı həyata keçirən fiziki və hüquqi şəxslər mallar və nəqliyyat vasitələri gömrük sərhədini keçənədək qabaqcadan qısa idxal və ya qısa ixrac bəyannaməsi təqdim etməklə gömrük orqanlarını apardıqları xarici iqtisadi fəaliyyət barədə məlumatlandırırlar. Bu yeniliyin sahibkarlar üçün əsas üstünlüyü ondan ibarətdir ki, gömrük orqanları artıq idxal və ixrac olunan mallar barədə qabaqcadan məlumat əldə edir və bununla da, sərhəd-buraxılış məntəqələrində bəyan edilən mal və nəqliyyat vasitələrinin daha sürətli keçidi təmin olunur.

Muxtar respublikada gömrük nəzarəti ilə yanaşı, gətirilən mal və nəqliyyat vasitələrinin rəsmiləşdirilməsi də beynəlxalq standartlar tətbiq edilməklə həyata keçirilir. Gömrük işi sahəsində risklərin avtomatlaşdırılmış idarəetmə sisteminin təkmilləşdirilməsi, gömrük nəzarətinin səmərəliliyinin artırılması məqsədilə malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsində "Yaşıl dəhliz" və beynəlxalq təcrübədə mövcud olan digər buraxılış sistemləri tətbiq olunur. Xarici iqtisadi fəaliyyət iştirakçısı sənədlərini gömrük qanunvericiliyinin tələblərinə uyğun olaraq tərtib və təqdim etdiyi təqdirdə rəsmiləşdirmə prosesi 5-10 dəqiqə ərzində başa çatdırılır.

Dövlət Gömrük Komitəsi, eyni zamanda hüquq-mühafizə orqanı olaraq əməliyyat-axtarış fəaliyyətinin genişləndirilməsi ilə qaçaqmalçılıq və digər hüquqpozma hallarına qarşı mübarizənin gücləndirilməsi istiqamətində də məqsədyönlü tədbirlər həyata keçirir. Bu məqsədlə ən mütərəqqi üsullardan istifadə olunur, kinoloji xidmətin keyfiyyəti yüksəldilir, digər hüquq-mühafizə orqanları ilə birgə fəaliyyət təmin olunur. Gömrük xidmətində hədəflərin idarə olunması sistemi, müasir texnika və avadanlıqlarla təchiz edilən mobil qruplar fəaliyyət göstərir. Bu sahədə görülən qabaqlayıcı tədbirlərin nəticəsi olaraq son illər hüquqpozma faktlarının aşkar olunmasında artan dinamika müşahidə edilir.

Gömrük orqanlarının fəaliyyətində prioritet istiqamətlərdən biri də daxili bazarın qorunmasıdır. Bu sahədə görülən işlər xaricə valyuta axınının qarşısını alır, məşğulluğu təmin edir, iqtisadiyyatın davamlı inkişafına münbit şərait yaradır. Gömrük orqanları tərəfindən yerli istehsalçıların mənafeyinin qorunması, daxili bazarda yerli istehsal məhsullarının satışının stimullaşdırılması istiqamətində görülən işlər nəinki muxtar respublikanın ərzaq təhlükəsizliyinin həllinə, hətta ixrac potensialının artmasına da əlavə stimul verir. Hazırda muxtar respublika 56 ölkə ilə ticarət əməliyyatları aparır.

*Dövlət Gömrük Komitəsinin əməkdaşları bundan sonra da ölkəmizin, eləcə də muxtar respublikamızın iqtisadi inkişafına öz töhfələrini verəcək, qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirəcəklər.*

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

# "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" əmək potensialından səmərəli istifadəni təmin edir

*Muxtar respublikamızın iqtisadi inkişafında insan resursları mühüm rola malikdir. Bu resurslardan nə dərəcədə səmərəli istifadə olunması isə burada həyata keçirilən məşğulluq siyasəti və onun sosial-iqtisadi nəticələrindən birbaşa asılıdır.*

İş yerlərinin olması cəmiyyətin ümumi inkişafına və yoxsulluğun aradan qaldırılmasına imkan verən ən mühüm amillərdən biridir. Məşğulluq, xüsusən daimi məşğulluq gəlirlərdən əlavə insanın sosial-mədəni həyatını keyfiyyətcə yüksəldən, onun həyata baxışlarını və gələcək arzularını formalaşdıran ən əsas amillərdəndir. Odur ki, yeni yaradılan hər hansı bir iş yeri fərdlərin cəmiyyət həyatında daha fəal iştirak etməyinə imkan verən bir mənbə kimi dəyərləndirilə bilər.

Müasir dünyada iş yerlərinin çatışmazlığı problemi, hətta inkişaf etmiş Avropa, Amerika və Asiya ölkələrində də çox kəskin şəkildə özünü büruzə verir. Ona görə də indi bütün dünyada məşğulluq məsələlərinin davamlı həlli diqqət mərkəzində olan məsələ kimi həmişə aktualdır. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə qəbul olunmuş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" regionda məşğulluq məsələlərinin uzunmüddətli strateji hədəflər çərçivəsində həlli üçün olduqca əhəmiyyətlidir.

Məşğulluğun artırılması üzrə həyata keçirilən belə proqramlar regionda əmək bazarının müxtəlif səviyyədə iqtisadi-təşkilati idarəedilməsi mexanizmində xüsusi yer tutur. Belə ki, proqramın həyata keçirilməsi məqsədilə təkcə dövlət büdcəsinin vəsaitlərinin deyil, o cümlədən regional investisiya proqramlarının və özəl sektorun vəsaitlərinin cəlb edilməsi məqsədəuyğun hesab olunur. Ümumiyyətlə, yeni iş yerlərinin yaradılması proqramı çərçivəsində dövlətin və özəl sektorun əməkdaşlığı bütün cəmiyyət maraqlarının təmin olunmasına imkan yaradır. Buna görə də əməyə tələbin stimullaşdırılmasına yönəldilən bütün tədbirlər daxili əmək bazarının inkişaf etdirilməsinə, iqtisadi maraqların ödənilməsinə xidmət edir.



Yeni iş yerlərinin yaradılması və mövcud olanların saxlanılması probleminin uğurlu həlli bazar iqtisadiyyatındakı rəqabətdən çox asılıdır. Ona görə də, məhsullarına ciddi tələb olmayan müəssisələrdə iş yerləri yaradılması əvəzinə daxili bazarda tələbatların ödənilməsi üzrə və ixrac potensialı olan müəssisələrdə yeni iş yerlərinin yaradılması bazar iqtisadiyyatının tələbləri baxımından ən uğurlu addımlardandır. Bu mənada, regionda fəaliyyət göstərən istehsal müəssisələrinin yerli məhsullarının satılması üçün etibarlı bazarların yaradılması, bu istiqamətdə reallaşdırılacaq stimullaşdırıcı tədbirlər yeni iş yerlərinin yaradılması üzrə proqramların həyata keçirilməsi mexanizmində mühüm rola malikdir. Bütün bunlar isə əmək bazarının dövlət tənzimlənməsi vasitəsi kimi adıçəkilən proqramın əhəmiyyətini bir daha göstərir. Yeni iş yerlərinin yaradılması, işçilərin peşə-ixtisas dərəcəsinin yüksəldilməsi, yeni peşələrin öyrədilməsi və özünüməşğulluğun təmin olunması istiqamətində həyata keçirilən aktiv məşğulluq tədbirləri öz səmərəsini verir.

Naxçıvan Muxtar Respublikasında əmək ehtiyatlarının davamlı və intensiv inkişafı üçün geniş imkanlar vardır. Belə ki, "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas yekunlarına görə bu dövrdə muxtar respublikada 22 min 296 yeni, o cümlədən 19 min 215 daimi iş yeri açılmış, yaradılan sənaye müəssisələrinin sayı 438-ə çatdırılmışdır. Bundan sonra qəbul olunan "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" isə əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsinə, işaxtaranların məşğulluğunun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə imkan verən və işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şəraitin yaradılmasına səbəb olan mühüm dövlət sənədidir. Bu dövlət proqramının icrası muxtar respublikada əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə də geniş imkanlar yaratmaqdadır. Rəqəmlərə baxsaq görürük ki, 2016-cı il ərzində muxtar respublikada 3010 yeni iş yeri yaradılmışdır ki, bunun da 97,7 faizi daimi iş yerləridir. Əmək bazarının tələblərinə uyğun olaraq ötən il ərzində Naxçıvan Regional Peşə Tədris Mərkəzində, ümumilikdə, 385 nəfər peşə kurslarına, 93 nəfər isə ixtisasartırma kurslarına cəlb edilmişdir. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələrində ötən il 2956 nəfər müxtəlif peşələrə yiyələnmişdir. Bütün bunlar muxtar respublikada həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində mümkün olmuşdur.

Əmək prosesində innovasiyalardan istifadə insanların həyat tərzinin, davranış modellərinin və ümumi mədəniyyətinin bir təzahürüdür. İnnovasiyaların formalaşması işçinin çalışdığı təşkilatın, müəssisənin yeni ideyaların tətbiq edilməsi üçün hazır olmağı ilə bağlıdır. Bu baxımdan bazar iqtisadiyyatı şəraitində elmi-texniki tərəqqinin yüksəlməsi nəticəsində əmək potensialının kəmiyyət göstəriciləri ilə yanaşı, onun keyfiyyət xüsusiyyətlərinə də olan tələb artır. Belə ki, bazar şəraitində istehsalın səmərəliliyinin artırılmasında istehsal edilən məhsulda işçinin qabiliyyətinin, biliklərinin və əməyə yaradıcı münasibətinin reallaşdırma səviyyəsi əsas bir vasitə kimi çıxış edir. Bu mənada, yeni iqtisadi şəraitdə muxtar respublikada çoxşaxəli iqtisadiyyatın formalaşdırılması, istehsalın sahə strukturunun dəyişilməsi ilə müşayiət olunan məşğulluq məsələləri yeni bir keyfiyyət məzmunu qazanmışdır.

Bütün bunları ümumiləşdirərək belə bir qənaətə gəlmək olar ki, "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" regionda əmək ehtiyatlarının təkrar istehsalına sistemli yanaşmanı, məşğulluq məsələləri üzrə strategiyanın hazırlanması və həyata keçirilməsini, mövcud olan əmək potensialından məqsədyönlü istifadəni təmin edən mühüm dövlət sənədi kimi muxtar respublikada ümumi məşğulluq səviyyəsinin yüksəldilməsinə əlverişli şərait yaradır.

**Sevinc CABBAROVA**
***AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutunun böyük elmi işçisi***

# Xocalı soyqırımından 25 il ötür

***Ermənilər həmişə həyasızcasına soyqırımına məruz qaldıqlarını iddia edir, hər il bu məsələni dünya ölkələrinin, xüsusilə də böyük dövlətlərin parlamentlərinin gündəminə gətirməyə çalışırlar. Tarixi faktlar isə sübut edir ki, ermənilər heç vaxt soyqırımına məruz qalmayıblar, əksinə, Naxçıvan da daxil olmaqla, Azərbaycanın digər bölgələrində, həmçinin Türkiyənin Şərqi Anadolu vilayətlərində dəfələrlə kütləvi qətliamlar törətmişlər.***

## Qaradağlı və Xocalı faciələri xalqımıza qarşı törədilmiş dəhşətli soyqırımı aktlarıdır

Bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, ermənilər tərəfindən tarixin müəyyən mərhələlərində törədilən soyqırımı cinayətlərində ideoloji amillər əsas rol oynamışdır. Məlum olduğu kimi, ideologiya cəmiyyətin maraqlarını, dünyagörüşünü, ideallarını ifadə edən ideyalar sistemi, məqsədləri və hədəfləri olan inanc və fikirlərin bütünləşməsidir. Bəşəriyyət üçün təhlükəli olan ideologiyanın əsas ünsürlərindən biri isə mifologiyadır. Hər bir millətin tarixində mifologiyalar böyük rol oynamışdır. Məsələn, italyanların "Mare Nostrum" (Böyük dəniz), yunanların "Megalo Idea" (Böyük ideya) kimi əfsanələri bu xalqların taleyi ilə bağlı keçmiş və gələcək hadisələri açıqlayan qavramlardır. "Böyük Ermənistan" uydurması "Hai-taht" (ermənilərin davası) da mifologiyaya əsaslanır. Ermənilər məhz bu ideologiyaya əsaslanaraq qonşu dövlətlərə qarşı mədəniyyət, ərazi iddiaları ilə çıxış edirlər. Hətta onlardakı nifrətin dərəcəsi o qədər yüksəkdir ki, əgər terrordan daha şiddətli metod varsa, onu da azərbaycanlılara qarşı tətbiq edə bilərlər. Bu vəziyyət ermənilər arasındakı nifrətin və terroru qidalandıran faşist ideologiyasının bəşəriyyət üçün nə qədər təhlükəli olduğunu göstərir.

Məhz həmin nifrətin və psixologiyanın nəticəsidir ki, XX əsrin əvvəllərində olduğu kimi, sonlarında da erməni daşnakları qanlı cinayətə əl atdılar. Qaradağlı və Xocalı faciələri mülki əhaliyə qarşı törədilən terrorizmin ən dəhşətli nümunələrindəndir.

Qaradağlı cinayəti 1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndində Ermənistan silahlı qüvvələri və Rusiyanın 366-cı alayı tərəfindən törədilən soyqırımıdır. Bu soyqırımını ikinci Xocalı da adlandırırlar. Belə ki, bu kənd sakinlərindən 104 nəfəri girov götürüldükdən sonra qoca və cavanlar ayrı-ayrı maşınlara doldurularaq yolboyu kəndlərdə düşürülmüş və ən qəddar üsullarla qətlə yetirilmişlər. Hətta erməni sakinlərə də müraciət olunub ki, kim azərbaycanlı öldürmək istəyirsə, gəlib istədiyi girovu öldürə bilər.

Beləliklə, ermənilər girov götürülənlərdən 67 nəfəri öldürdükdən sonra qazdıqları quyuya doldurmuşlar. Öldürülənlərdən 10-u qadın, 8-i uşaq idi. İki ailənin hər birindən 4 nəfər şəhid olmuş, 42 ailə öz başçısını itirmiş, 140-a yaxın uşaq yetim qalmışdır. İşğal nəticəsində kənddə 200 ev, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və digər obyektlər dağıdılmışdır.

Qaradağlı soyqırımının törədilməsi ilə Xocalıya gedən yol tamamilə açılmışdır. Qaradağlı soyqırımı ilə kifayətlənməyən ermənilər Xocalıda daha amansız hərəkətlərə imza atmışlar. Bu faciə zamanı törədilən vəhşilikləri sözlə təsvir etmək mümkün deyil. Ermənilərin bu hadisələri törətməsi onların Azərbaycan türklərinə, ümumiyyətlə, türklüyə qarşı nifrət psixologiyasından, türkü öldürməkdən mənəvi zövq almasından irəli gəlir.

Ermənilərin Xocalıda törətdikləri soyqırımı Azərbaycan xalqına qarşı düşünülmüş psixoloji bir zərbə vurmaq məqsədi daşıyırdı. Əsas məqsəd bütün Azərbaycan xalqında kollektiv sarsıntı yarada bilmək, əhalidə ermənilərin "qorxu, təhlükə mənbəyi" imicini formalaşdırmaq idi. Dinc əhalinin xüsusi qəddarlıqla qətlə yetirilməsində bir sıra məqsədlər də güdülmüşdür: azərbaycanlılar arasında təşviş yaratmaqla hücumlara qarşı müqavimətin zəiflədilməsi, cəmiyyətin iflic vəziyyətinə salınması, mümkün qədər çox ərazilərin işğal edilməsi.

Əldə olan faktlar onu deməyə əsas verir ki, Azərbaycan tarixinin ən ağrılı və acılı səhifələrindən olan Qaradağlı və Xocalı faciələri mübahisəsiz bir soyqırımı aktıdır. Günümüzdə hər hansı bir faciənin soyqırımı olaraq tərif edilməsi üçün yanlış olaraq saylara diqqət çəkilməkdə və əgər yüz minlərlə insan məhv edilərsə, bunun soyqırımı olaraq xarakterizə oluna biləcəyi düşünülməkdədir. 9 dekabr 1948-ci ildə BMT tərəfindən qəbul edilən "Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması Sözləşməsi"ndəki tərifdə müəyyənedici ünsür say deyil, millət, din, soy, ya da irq kimi xüsusiyyətlər üzərində qurulan bir qrupun məqsədli olaraq tamamilə, ya da qismən məhv edilməsi planıdır. Məhz bu baxımdan ermənilərin Xocalıda törətdikləri vəhşiliklər insanların (qrupun) planlı olaraq məhv edilməsinə yönəlik məqsəd və cinayətlərin təzahürləridir. Ermənistan BMT-nin "Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması Sözləşməsi"ni imzaladığı üçün bu nizamnamə qarşısında məsuliyyət daşıyır.

Ermənilərin "quzu cildinə girmiş çaqqal" obrazını ifşa etmək üçün üzərimizə böyük məsuliyyət düşür. Azərbaycan erməni saxtakarlığı və cinayətləri ilə bağlı qarşılaşdığı problemləri beynəlxalq aləmdə açıqca ortaya qoymuşdur. Bu mübarizədə uğurlar əldə etməyin başlıca yolu isə psixoloji müharibəni davam etdirmək və cəbhədə olduğu kimi, beynəlxalq ictimai rəydə də üstünlüyü əldən verməməkdir.

**Emin ŞIXƏLİYEV**
*AMEA Naxçıvan Bölməsinin əməkdaşı,tarix üzrə fəlsəfə doktoru, dosent*

## XX əsrin faciəsi



***Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsində Xocalı faciəsinin 25-ci ildönümünə həsr olunmuş elmi-praktik konfrans keçirilib. Əvvəlcə Xocalı soyqırımı qurbanlarının və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.***

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov 25 il əvvəl xalqımıza qarşı xüsusi amansızlıqla törədilən bu qətliamı XX əsrin ən dəhşətli faciələrindən biri kimi dəyərləndirib, həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində görülən işlərdən danışıb.

Tarix-filologiya fakültəsinin dekanı, dosent Rəsul Bağırov "Bəşəriyyəti heyrətə salan erməni vəhşiliyi" adlı məruzəsində bildirib ki, Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərin davamlı olaraq etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalaraq, öz tarixi torpaqlarından qovularaq qaçqına, məcburi köçkünə çevrilib və bütün bunlar ermənilər tərəfindən törədilən kütləvi qırğınlarla müşayiət olunub. Həmin proseslər sovet dövründə də davam edib.

Vurğulanıb ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı əhalisindən 613 nəfər öldürülüb, 487 nəfər şikəst olub, 1275 nəfər dinc sakin – qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə məruz qalıb. 150 nəfərin taleyi hələ də məlum deyil. Səkkiz ailə bütövlükdə məhv edilib, 24 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib.

"Xocalı – qan yaddaşı" adlı məruzə ilə çıxış edən Kitabxanaçılıq kafedrasının dosenti Sədaqət Nemətova Xocalı faciəsinin xalqımızın milli azadlıq ruhuna qarşı misligörünməmiş bir təcavüz olması ilə yanaşı, həm də tariximizin qəhrəmanlıq səhifələrindən birini təşkil etdiyini deyib.

Sonra tələbələr Xocalıya ithaf olunmuş şeirlər səsləndiriblər.

* * *



***Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində də Xocalı soyqırımının 25-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.***

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə mərkəzin direktoru Namiq Novruzov bildirib ki, Xocalı soyqırımı XX əsrin ən qanlı hadisələrindən biridir. Bu hadisə mənfur erməni daşnaklarının Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı siyasətinin növbəti mərhələsi kimi tariximizə yazılıb. Ermənilərin Xocalını hədəfə almaqda məqsədi ata-baba torpaqlarımızda bizə məxsus olan tarix və mədəniyyət abidələrimizi məhv etmək, Qarabağın dağlıq hissəsində strateji əhəmiyyətli maneəni aradan qaldırmaq idi.

Qeyd olunub ki, yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra Xocalı soyqırımına ilk siyasi qiymət verilib. Bu cinayətin beynəlxalq müstəvidə tanıdılması və erməni faşizminin ifşası ilə əlaqədar ilk təşəbbüs də ulu öndərin adı ilə bağlıdır. Onun səyi nəticəsində Azərbaycan Respublikasının Milli Məclisində 26 fevralın Xocalı Soyqırımı Günü kimi qeyd olunması qərara alınıb.

Namiq Novruzov ulu öndər Heydər Əliyevin Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində göstərdiyi səylərdən, apardığı məqsədyönlü siyasətdən söz açıb, bu siyasətin bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini bildirib.

Sonda mərkəzin ayrı-ayrı dərnək üzvlərinin ifasında Xocalıya həsr edilmiş şeirlər səsləndirilib, slayd nümayiş etdirilib, səhnəciklər göstərilib.

Tədbir iştirakçıları sonda Xocalı faciəsini əks etdirən sərgiyə baxıblar.

## "Qan yaddaşımız: Xocalı" adlı rəsm sərgisi açılıb






Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Xocalı soyqırımının 25-ci ildönümünə həsr edilmiş "Qan yaddaşımız: Xocalı" adlı rəsm sərgisi açılıb.

Sərgidə əksəriyyəti gənclərdən ibarət olan 25 rəssamın 44 əsəri nümayiş etdirilir.

Sərginin açılış mərasimində Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, Xocalı soyqırımı bəşəriyyətə qarşı törədilən cinayətdir. Ona görə də Azərbaycan xalqı və bütün mütərəqqi bəşəriyyət bu amansız qətliamı heç zaman unutmayacaq.

Ülviyyə Həmzəyeva bu faciənin dünya ictimaiyyətinə çatdırılması istiqamətində ardıcıl iş aparıldığını və bu işdə hər birimizin fəal iştirakının vətəndaşlıq borcu olduğunu qeyd edib. Vurğulayıb ki, Xocalıya həsr edilən sərgidə gənclərimizin fəallıq nümayiş etdirməsi vətənpərvər ruhlu gənc nəslin yetişdiyini göstərir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev qeyd edib ki, düşmən 1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndində və həmin il fevralın 25-dən 26-na keçən gecə isə Xocalıda dəhşətli vəhşiliklər törədib. Məqsəd həm də xalqımızın mübarizə ruhuna zərbə vurmaq olub. Ötən il aprel ayının əvvəlində cəbhədə baş vermiş döyüşlərdə ordumuzun düşmənə sarsıdıcı zərbələr endirməsi bir daha sübut edib ki, Azərbaycan Ordusu öz torpaqlarını düşmən tapdağından hər an azad etmək iqtidarındadır.

Həmin döyüşlərdən sonra işğaldan azad edilən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamı xatırladan Məmməd Babayev bildirib ki, bu, mühüm tarixi sənəddir və soydaşlarımızın torpaqlarımıza böyük qayıdışının başlanğıcı kimi əlamətdar bir hadisədir.

Tədbirdə gənc xanəndə Yusif Babayevin ifasında "Qarabağ şikəstəsi" səsləndirildikdən sonra "Qan yaddaşımız: Xocalı" mövzusunda keçirilən rəsm müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Sonra sərgiyə baxış olub.

Sərgilənən rəsm əsərləri iştirakçılar tərəfindən maraqla qarşılanıb.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 146